"Ən gözəl musiqi kainatda səslənən musiqidir, heyif ki, onu hər kəs dinləyə bilmir". Dahi yunan filosofu Pifaqor ruhun musiqi dili ilə səslənən fəlsəfəsi, bu günə qədər sirri mübhəm qalan fundamental nəzəri və ruhsal mənbə olan musiqidən danışarkən söyləmişdi bu fikirləri. Bəli, muğam kainatın hər sənətkara, hər dinləyiciyə açılmayan kodlaşmış informasiyasıdır. Kimsə tərəfindən bəstələnməyən qəlbin ən incə çalarlarını dinləyiciyə çatdıran bu birsəsli simfoniya yalnız seçilmişlərə bəxş olunan ilahi möcüzədir. Ruhumuzun qidasıdır, onu saflaşdırır, ucaldır. Və bir də kainatın, onun cövhəri sayılan insanın tale yollarını anladır bizə. Onun sözləri də xüsusi bir fəlsəfi məna daşıyır. Məhəbbət, sevgi, eşq üzərində qurulur, Tanrıya, onun yaratdıqlarına həsr olunur. Onu dinləmək, duymaq, anlamaq da ifa etmək qədər çətindir. Səni gah bəmdə saxlayır, gah zilə qaldırır, gah nəşələndirir, gah da kövrəldir. Mərhum şairimiz Bəxtiyar Vahabzadə: "...ahəstəcə qandırdı muğam..." misralarını yazarkən də təkcə özünü nəzərdə tutmurdu. Bəlkə də anlatmağa çalışırdı ki, ruhumuz kainatdan gəlib, kainata da dönəcək, muğamlarımız isə həyat var olduqca əql və ruhun təkan nöqtəsi olacaq. Bu yolun gedişi uzun, dönüşü anidir. Muğamla yaşanan anlar səni səndən alır, düşüncələrin, xatirələrin əsiri edir...



# Azərbaycan muğamı - əql və ruhun təkan nöqtəsi

Dövlət başçımızın Qarabağa növbəti səfəri xarabalıqdan cənnətə dönən bu diyarın həm də muğamlarımızın əsl sənət beşiyi olduğunu bir daha anlatdı bizə. Ağdam Muğam Mərkəzinin açılışı adi bir tədbir deyildi, bu sənət əsərini, sənət tablosunu yaradan, o qeyri-adi ünü eşidib, duyan, ifa edən sənətkarların yarışı idi sanki. O gün Qarabağda muğam bayramı, muğam təntənəsi yaşanırdı... Birbirindən fərqli ifalar ürəkləri fəth edir, sevinc paylayır, ovqatımıza bir kövrəklik qatırdı. Gözləri dolanlar da vardı... Yeni açılmış mərkəzin divarlarına sığmayan bu bənzərsiz səslər dağları, çayları aşıb dünyaya yayılırdı. Hər kəs sevincli idi. Bu gözəl inciləri qoruyub, dünyada təbliğ edən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva öz məzmununda, mahiyyətində, mizanında etnomədəniyyətimizin əsas xüsusiyyətlərini, xalqımızın dünənini, bu gününü, həyat fəlsəfəsini ümumiləşdirən, zövqləri, səviyyələri özündə bir araya gətirib insanların düşüncə birliyini təmin etmək gücündə olan muğamlarımıza qayğı və diqqətindən o qədər məmnun görünürdü ki... Niyə də olmasın?! Neçə illərin zəhməti hədər getməmişdi: "Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən olan muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır", - deyən Mehriban xanım Fondun rəhbəri kimi fəaliyyətə başladığı ilk gündən bu sənət xəzinəsinə, ulu muğamımıza sahib çıxdı, onun himayədarı oldu. İlk olaraq nəfis tərtibatla nəşr etdirdiyi "Qarabağ xanəndələri" adlı albomun təqdimat mərasimində belə söyləmişdi: "...Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq". Alboma 24 dəyərli sənətçimizin ifasında səslənən bənzərsiz muğam nümunələri, ürəkləri riqqətə gətirən ifalar daxil edilmişdi. "Salnamə" studiyasında rejissor Xamis Muradovun rəhbərliyilə hazırlanmış sənədli filmin kadrlarının müşayiəti ilə təqdim olunan ifalar belə nadir sənətkarlar yetirən Azərbaycan torpağının misilsiz gözəlliklərini bir daha göz önündə canlandırır, bizləri yağı tapdağında, işğal altında olan doğma torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə səsləyirdi. Ağdamda keçirilən bu musiqi bayramının iştirakçıları isə sələflərinin mübariz ruhunun davamı olaraq bütün dünyaya Qarabağın azadlığa qovuşduğunu, onun əzəli və əbədi Azərbaycan torpağı olduğunu, bu torpaqların bəşəriyyətə muğam kimi nadir sənət nümunəsi bəxş etdiyini bir daha sübut etdilər. Qoy bütün dünya bir daha eşitsin:



*Könlüm keçir Qarabağdan*
*Gah bu dağdan, gah o dağdan*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi...*

O gün Ağdamda oxunanlar qırmızı koftalı, yaşıl tumanlı, başı dumanlı "Şuşanın dağları"na yayılır, "Qarabağın maralı" vəsf edildikcə, bir eşq hekayəsi ruhumuzu təzələyir, bu diyarı qarış-qarış gəzmək arzusu baş qaldırdı içimizdə:

*Gedək Qırxqız yaylağına*
*Ceyran, cüyür oylağına*
*Enək İsa bulağına*
*Qarabağın maralı!..*

Ötən illərdə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyətə malikdir. Uzun illərdən bəri keçirilən muğam müsabiqələri yurdumuzun hər bölgəsində böyüyən yeniyetmə və gənclər üçün əsl məktəbə, sınaq meydanına çevrilib. Səsinə, özünə güvənənlərin bu yarışı yeni-yeni səslərin, ifaların üzə çıxmasına vəsilə olub.

Bayram konsertində məhz bu layihələrin yetirmələri olan gənc ifaçılar ustad sənətkarlarla birgə səhnəyə çıxdılar: "Şair, sorma nədən Vətən yaxşıdır?" - sualına elə Vahidsayağı: "Azadlığın mübarək Qarabağ! Qarabağ bir cahandır, Qarabağ canda bir candır! Qarabağ Azərbaycandır!" - söylədilər. Şəninə dastanlar yazılan bu torpaqların uğrunda şəhidliyi seçənlər də elə dastan oldular:

*Xudayar qardaşım qəhrəman oldu,*
*Adı da, özü də dastana döndü.*

Bu musiqi bayramının sonu daha da möhtəşəm oldu. Söz balaca muğam ifaçılarına verildi, "Qarabağın şikəstəsi" salonu bürüdü. Mehriban xanımın illər boyu qayğısına qalıb, ən mötəbər tədbirlərə dəvət etdiyi, xarici ölkələrə səfərlərə apardığı "Qarabağ bülbülləri"nin davamçıları şaqraq səsləriylə bütün salonu ayağa qaldırdılar. Mehriban xanım haqlı idi. Köçkünlük dövründə çadırlarda böyüyən, Qarabağ bülbüllərinə oxumaq üçün Qarabağ təbiəti, Qarabağ dağları, Qarabağ torpağı... lazım idi. O gün olduğu kimi... Əhəd, Türrə və Rüfət möhtəşəm ifaları ilə ürəkləri ovsunladılar.

Mədəniyyət incilərinin qoruyucu mələyi missiyasını üzərinə götürdüyü gündən Mehriban xanımın ən ali arzusu - bir gün Şuşada möhtəşəm muğamlarımızı səsləndirmək olmuşdu. 2021-ci ilin mayında keçirilən "Xarıbülbül" Musiqi Festivalında bütün tilsimlər qırıldı, qalib sərkərdəmizin azad etdiyi ruhumuzun şəhəri Şuşada muğam səsləndi. Muğamlarımız dünyanın mədəniyyət inciləri sırasına salındı. Bununla bağlı Mehriban xanım deyib: "Bizim məqsədimiz muğamı qorumaq, inkişaf etdirmək, muğamın gözəlliyini, onun dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaqdır... Muğam hər bir azərbaycanlının genetik kodudur. Hətta müəyyən səbəblər üzündən muğamı hələ başa düşməyən, amma buna hökmən, mütləq gəlib çıxacaq ən gənc azərbaycanlının da genetik kodudur".

Dünyada əbədi heç nə yoxdur, hər şey dəyişir, tək genetik yaddaşımızdan, kodumuzdan savayı. O gün Qarabağda yaşanan muğam təntənəsi bir daha təsdiqlədi ki, Azərbaycan muğamı şahdır. "Qarabağ şikəstəsi": dünya durduqca bu simfoniya daim səslənəcək.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 16 may (№100).- S.14.